İMAM ƏLBANİNİN ƏSƏRLƏRİ SİLSİLƏSİNDƏN 3

Tovhid.info

Ey İslam Təbliğatçıları!

# TÖVHİD HƏR ŞEYDƏN ÖNCƏDİR

*İmam Muhəmməd Nasiruddin əl-Əlbani*
(Allah rəhmət etsin)

**Tərcümə və haşiyələr:**
***Əbu Zeyd Həbibli***

**İMAM ƏLBANİNİN ƏSƏRLƏRİ SİLSİLƏSİNDƏN: 3**

## EY İSLAM TƏBLİĞATÇILARI!

# TÖVHİD

## HƏR ŞEYDƏN ÖNCƏDİR

***Müəllif:***
İmam Muhəmməd Nasiruddin əl-Əlbani
(Allah qəni-qəni rəhmət eləsin!)

***Tərcümə və haşiyələr:***
Əbu Zeyd Həbibli


بسم الله الرحمن الرحيم

## ÖN SÖZ

Aləmlərin Rəbbi olan Allaha həmd olsun! Onun qulu və elçisi olan Muhəmmədə, onun ailəsinə Allahın salam-duası olsun!

Sizə təqdim etdiyimiz növbəti kitabımız bu əsrin dahi hədis alimlərindən və sələfi dəvətinin imamlarından biri olan şeyx Muhəmməd Nasiruddin əl-Əlbaninin mühüm bir suala verdiyi təfsilatlı cavabının yazıya alınmış formasıdır. İmamın bu cavabı elə onun öz sağlığında yazıya köçürülmüş və *"Ət-Tovhidu əvvələn, yə duətəl-İsləm" – "Ey İslam təbliğatçıları! Tövhid hər şeydən öncədir"* adı ilə nəşr olunmuşdur.

Məlumdur ki, islamın ilk dönəmlərindən bəri, hətta səhabə əsrinin sonlarında artıq Quran və sünnəyə müxalif firqələr zühur etməyə başlamışdır. Bu firqələrə misal olaraq xəvaricləri və qədəriləri qeyd etmək olar. Daha sonra yunan fəlsəfəsinin də ərəb dilinə tərcümə edilməsi ilə islam ruhuna yad olan fikirlərin ortaya çıxması daha da sürətləndi və bu hal hər əsrdə davam etdi. Beləcə, həmin firqələrin özü, ya da ki qalıqları günümüzəcən gəlib çatdı. Hal-hazırkı dönəmdə isə müsəlmanların vəziyyəti heç də ürəkaçan deyildir. Bir tərəfdən islam adına danışanların çoxluğu, digər tərəfdən isə insanların çoxunun dini biliklərdən uzaq olması... Beləcə, düzü əyridən, ağı qaradan ayırd etmək bir çox insana çətin gəlməkdədir. Belə bir vəziyyətdə hər firqə və hər təriqət insanları öz tərəfinə cəlb etməkdən ötrü müəyyən "islami" şüarlar altında fəaliyyətlərini gücləndirməkdədirlər. Kimisi "Əhli-beyt sevgisi" şüarı ilə insanları küfür və şirkə, kimisi "Nəfsi tərbiyə" şüarı ilə insanları bidət və xurafatlara, kimisi "Şəriət dövləti qurmaq" adı ilə insanları anarxiya və terrora, kimisi də: "Quran bizə yetər", – deyərək "Hədislərsiz islam" şüarı ilə insanları dinsizliyə sürükləyir. Çox təəssüflər olsun ki, özlərini sələfiyyətə, yəni əhli-sünnət məzhəbinə nisbət edənlərin bəziləri də bu çaşqınlıqdan öz payını almışdır.

İmam Əlbani bu risalədə üzünü islam təbliğatçılarına tutaraq onları bütün peyğəmbərlərin dəvətlərinin əsası olan tövhid dəvətinə səsləməkdədir. Şəkk yoxdur ki, tövhid etiqadı islam dininin əsası, insanın yaradılış qayəsi, bütün peyğəmbərlərin

göndərilmə və bütün kitabların endirilmə səbəbidir. Müsəlmanlar başqa yad bir şüar altında deyil, məhz tövhid inancı ətrafında birləşə və güclü ola bilərlər. Bu etiqad üzərində qurulan dəvət sarsılmaz bir dəvətdir. Bu etiqad "lə iləhə illallah" şəhadətinin tələbi, habelə bəndənin dünya və axirət səadətinin təminatıdır.

Lakin, çox təəssüflər olsun ki, günümüzdə vəziyyət o qədər acınacaqlı və bərbad bir hal almışdır ki, hətta tövhid inancı və "lə iləhə illallah" şüarı ilə də insanları azdırmağa çalışmışlar. Belə ki, bəzilərinin tövhidi Məkkə müşriklərinin tövhidindən fərqlənmir. Digərlərinin tövhidi isə əhli-beytə pərəstiş etməkdən kənara çıxmır. Başqa bir firqənin "tövhid" inancı isə, Uca Allahın ad və sifətlərini inkar etməkdən ibarətdir. Bəziləri: "Lə iləhə illallah", – dedikdə "Allahdan başqa hakim yoxdur"[1] mənasını, digərləri isə "lə iləhə illallah" şəhadəti ilə "Allahdan başqa varlıq yoxdur"[2] mənasını nəzərdə tuturlar. Hətta "lə iləhə illallah" şəhadəti ilə "Allahdan başqa itaət olunası heç kəs yoxdur" mənasını nəzərdə tutub, bununla da Peyğəmbərə ﷺ tabeliyin vacibliyini inkar edən və beləcə "Muhəmmədur-Rəsulullah" şəhadətinin üstündən xətt çəkənləri də görmək mümkündür[3].

Lakin aləmlərin rəbbi olan Allaha həmd olsun ki, səmada parlayan günəşin önünü ləkəli əllər və zülmət dolu qəlblər tuta bilməmişdir. Peyğəmbərimiz Muhəmmədin ﷺ bizə gecəsi də gündüzü kimi apaydın şəkildə qoyub getdiyi dini hal-hazırda da öz nurunu hidayət dolu qəlblərə çiləməkdədir. Əgər biz "lə iləhə illallah" şəhadətini iqrar edən və tövhid etiqadı üzərində olduğunu iddia edən firqələrə, camaatlara diqqət yetirsək, etiqadlarının və təbliğatlarının, qayə və məqsədlərinin heç də tövhid inancına

---

[1] İxvanül-müslimin partiyasının ortaya çıxartdığı "Hakimiyyət tövhidi"nə işarədir.

[2] Sufiliyin "Vəhdətül-vücud" ("Varlıqların bir bədən kimi vəhdəti") etiqadına işarədir.

[3] Bu məqamda imam Bərbəhərinin "Şərh əs-sünnə" əsərindəki bu sözünü xatırlamaq yerinə düşərdi. O demişdir: "Yaşadığın dövrdə kiminlə oturub-durduğuna, kimə qulaq asdığına və kiminlə yoldaşlıq etdiyinə fikir ver və ehtiyatlı ol! Çünki insanlar, Allahın qoruduğu kəslər istisna olmaqla, sanki riddət (küfr) içindədirlər".

qulluq etmədiyini rahat bir şəkildə görə bilərik. Bu onların hər addımında özünü büruzə verən bir həqiqətdir. Axı “Hər yer Kərbəla, hər gün Aşura” şüarı ilə yatıb-duran, 21-ci əsrdə hələ də Hüseynin qatillərini axtaran, gecə-gündüz Mehdinin yolunu gözləyən, lakin ömründə bir dəfə də olsa tövhid barədə düşünməyən adamın, yaxud öz şeyxlərinə sanki Allaha ibadət edirmiş kimi təzim edən kəslərin tövhid etiqadı ilə nə əlaqəsi ola bilər?! “Tövhid” şüarı altında gecə-gündüz insanlara hakimiyyətə gəlməyin yollarını aşılayan, lakin öz evinin içində Allahın qanunları ilə hökm verə bilməyən və ya verməyən şəxslərin həqiqi tövhid inancı və tövhid dəvəti ilə nə bağlılığı ola bilər?! Quran və sünnədən, habelə sünnə imamlarının kitablarından daha çox siyasi qəzet və jurnallar oxuyan, sünnə sahibi alimlərin dərs və mühazirələrindən daha çox siyasi xəbərlər dinləyən, həqiqi alimləri tərk edib özləri kimi cahilləri özlərinə alim bilən kəslərin həqiqi sələfi – sünni dəvəti ilə nə yaxınlığı ola bilər?!

Lakin Uca Allah öz dinini qoruyacağını vəd etmişdir. Bu isə Peyğəmbərimizin ﷺ *“Uca Allah hər yüz ilin başında bu ümmət üçün dinini dirçəldən kəsi göndərər”*[1] hədisində bəyan etdiyi kimi, rəbbani alimlər vasitəsilə gerçəkləşir. Hər ağac bəhərindən tanındığı kimi, bu cür alimlər də öz əsərləri və dəvətləri ilə tanınırlar. Daha doğrusu, Uca Allah bu cür alimləri insanlara tanıdır ki, haqq ilə batil bəlli olsun və haqdan uzaq düşən üçün heç bir bəhanə yeri qalmasın. *“Biz ona haqq yolu göstərdik. İstər şükür etsin, istər nankor”*.[2]

✍ ***Əbu Zeyd Həbibli***

---

[1] Hədisi Əbu davud (4291) və başqaları rəvayət etmiş, imam Əlbani də “Səhih əl-cami” (1874) əsərində səhih olduğunu bildirmişdi.
[2] Əl-İnsan, 3

# MÜQƏDDİMƏ

Həmd ancaq Allaha məxsusdur! Ona həmd edir, Ondan yardım istəyir və məğfirətini diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən Ona sığınırıq. Allah kimi doğru yola yönəltsə, onu heç kəs azdıra bilməz, kimi də azdırsa, onu heç kəs doğru yola yönəldə bilməz. Mən şəhadət edirəm ki, Allahdan başqa haqq məbud yoxdur. O, təkdir və şəriksizdir. Yenə şəhadət edirəm ki, Muhəmməd ﷺ Allahın qulu və son elçisidir.

*"Ey iman edənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!"*[1]

*"Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın törədib yer üzünə yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən cürbəcür şeylər istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən həzər edin! Həqiqətən, Allah sizə nəzarət edir"*[2].

*"Ey iman edənlər! Allahdan qorxun və doğru söz söyləyin ki, O, əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun elçisinə itaət etsə, böyük bir uğur əldə edər"*[3].

Hər kəs üçün son dərəcə faydalı olan bu risalədə[4] əsrimizin böyük alimlərdən olan şeyx Muhəmməd Nasiruddin əl-Əlbani (Allah ona rəhmət etsin!) mühüm bir sualı cavablandırmışdır. Dinin qeyrətini çəkənlərin və onun qeydinə qalanların qəlblərində daşıdıqları, dillərindən düşürmədikləri və gecə-gündüz zehinlərini məşğul edən həmin sualın məğzi belədir: ***"Müsəlmanların dirçəliş yolu nədir? Uca Allahın onları qüvvətləndirməsi və digər millətlər arasında layiq olduqları yerə qaldırması üçün nə etmək lazımdır?"***

İmam Əlbani həmin suala təfsilatlı və aydın şəkildə cavab vermişdir. Şeyxin verdiyi cavaba böyük ehtiyac duyulduğunu

---

[1] Ali-İmran, 102
[2] Ən-Nisə, 1
[3] Əl-Əhzab, 70-71
[4] Bu risalə şeyxin səs yazısından – kasetdən köçürülərək yazıya alınmış və daha sonra hicri təqvimi ilə 1419-cu ildə "əs-Sələfiyyə" jurnalının dördüncü sayında dərc olunmuşdur.

nəzərə alaraq onu (risalə şəklində) nəşr etmək qərarına gəldik. Uca Allahdan diləyirəm ki, bu risaləni müsəlmanlar üçün faydalı etsin və onları Özünün sevib razı qaldığı əməllərə yönəltsin! Həqiqətən də O, Səxavətlidir, Kərimdir.

# EY İSLAM TƏBLİĞATÇILARI,
# TÖVHİD HƏR ŞEYDƏN ÖNCƏDİR!

**Sual:** Möhtərəm şeyx, şübhə yoxdur ki, siz islam ümmətinin hal-hazırkı dini vəziyyətinin acınacaqlı halından xəbərdarsınız. Buna misal olaraq əqidənin əsasları və etiqadi məsələlərdə olan savadsızlığı, ümmətin şəri məsələlərə yanaşma metodundakı ixtilaflarını, habelə əksər yerlərdə islamın ilk dönəm etiqadına və mənhəcinə[1] müvafiq həqiqi islami təbliğata qarşı laqeydliyi qeyd etmək olar. Halbuki ümmətin əvvəli məhz bu yolla islah olmuşdur. Ümmətin bu acınacaqlı durumu dinin qeydinə qalan səmimi insanların hərəkətə keçmələrinə, bu nöqsanları aradan qaldırmaq və bu halı dəyişmək istəyinin yaranmasına səbəb olsa da, onlar etiqad və mənhəclərinin fərqliliyindən dolayı ümmətin islahı yolunda da fikir ayrılığına düşdülər. Möhtərəm şeyx, sizə də bəlli olduğu kimi, on illərdir, islam ümmətini islah edəcəklərini iddia edən bu təşkilatların, islami cərəyan və hərəkatların olmasına baxmayaraq, onlar heç bir müsbət nəticə əldə etməmiş, əksinə, ümmətin başına yeni-yeni fitnələrin, fəlakətlərin və böyük bəlaların gəlməsinə səbəb olmuşlar. Bütün bunların səbəbi isə onların etiqad və mənhəclərinin Peyğəmbərin ﷺ yoluna və şəriətinə müxalif olması idi. Nəticə etibarilə, onlar müsəlmanların,ələlxüsus gənclərin bu problemlərin həlli yolunda çaşbaş qalmalarına səbəb oldular. Peyğəmbərin ﷺ dəvət metodunu izləyən, möminlərin (sələflərin) haqq yolu ilə gedən, səhabələrin, tabiinlərin və onlara tabe olan islam alimlərinin fəhmini (dini anlayışlarını) özlərinə rəhbər seçən müsəlmanlar bu problemin həlli istiqamətində, habelə həlli üçün lazım olan münasibətlərin qurulmasında öz üzərlərinə düşən məsuliyyətin fərqində olmalıdırlar.

- ***Bu hərəkat və cərəyanların ardıcıllarına nə nəsihət edərdiniz?***
- ***Bu problemin həlli istiqamətində ən uğurlu yol hansıdır?***

---

[1] Şəri məsələlərə yanaşma metodu.

• ***Müsəlman bu istiqamətdə nə etməlidir ki, Qiyamət günü Uca Allahın önündə üzüağ olsun?***

## İMAM ƏLBANİNİN CAVABI

۞ ***Peyğəmbərlərin və elçilərin ﷺ etdiyi kimi, ilk növbədə tövhid inancına diqqət ayırmaq və ehtiram göstərmək lazımdır.***

Bayaq sualda səslənilən müsəlmanların halı barədə onu da əlavə etmək istəyirəm ki, müsəlmanların indiki halı Allah rəsulunun ﷺ peyğəmbər kimi göndərildiyi vaxt ərəblərin cahiliyyət dönəmindəki hallarından heç də acınacaqlı deyildi. Ən azından ona görə ki, islam şəriəti kamil bir şəkildə önümüzdədir. Habelə ümmət içərisində bu şəriətlə insanları doğru yola yönəldən, onlara etiqad, ibadət, əxlaq və mənhəc baxımından həqiqi islamı təbliğ edən və haqq üzərində sabit olan bir toplum mövcuddur. Şübhə yoxdur ki, əksər müsəlman cəmiyyətlərinin hal-hazırkı vəziyyəti cahiliyyət dövründəki ərəblərin halına bənzəyir.

Buna əsasən deyirik ki, müalicə həmin müalicə, dərman da həmin dərmandır! Peyğəmbərin ﷺ cahil ərəb cəmiyyətini müalicə etdiyi kimi, bütün islam təbliğatçıları da bu gün ilk növbədə "lə iləhə illallah" kəlməsi ətrafında yaranmış səhv anlayışı aradan qaldırmalı, beləcə acınacaqlı hallarını həmin üslub və həmin dəva-dərmanla müalicə etməlidirlər. Uca Allahın *"Allahın rəsulunda sizlər – Allaha və Axirət gününə ümidini bağlayanlar və Allahı çox zikr edənlər üçün gözəl nümunə vardır"* [1] ayəsi üzərində düşündükdə onun bu mənanı bəyan etdiyini açıq-aydın görərik.

Peyğəmbərimiz Muhəmməd ﷺ müsəlmanların problemlərinin həlli istiqamətində hər zaman olduğu kimi, indiki dövrdə də bizlər üçün gözəl bir örnəkdir. Bu da bizdən məhz Peyğəmbərin ﷺ başladığı kimi başlamağımızı, yəni ilk növbədə müsəlmanların korlanmış əqidələrini, sonra ibadətlərini, daha sonra isə əxlaqlarını

---

[1] Əl-Əhzab, 21

düzəltməyi tələb edir. Qeyd etdiyim bu ardıcıllıqda məqsədim daha önəmli olan birinci mərhələni digərlərindən ayırmaq deyildir. Təmənnam müsəlmanların bu məsələyə xüsusi bir önəm verməleridir. "Müsəlmanlar" dedikdə, təbii ki, ilk növbədə islam təbliğatçılarını, daha doğrusu, alim olanlarını nəzərdə tuturam. Çünki, çox təəssüflər olsun ki, günümüzdə "islam təbliğatçısı" məfhumuna hər bir müsəlman, hətta elmdən yoxsul olanlar da daxildirlər. Beləcə, hər kəs özünü islam təbliğatçısı hesab etməkdədir. Bu məqamda nəinki alimlərə, hətta ağıl sahibi hər kəsə bəlli olan bir qaydanı xatırlatmaq yerinə düşərdi. Həmin qayda belədir: *"Bir şedən yoxsul olan kəs həmin şeyi başqasına verə bilməz"*[1].

Bildiyimiz kimi, bu gün milyonlarla tərəfdarı olan böyük bir təriqət vardır ki, "təbliğatçı" dedikdə ilk növbədə onlar nəzərdə tutulur. Bununla mən "Dəvət camaatı"nı və ya "Təbliğ camaatı"nı nəzərdə tuturam. Bununla belə onların əksəriyyəti Uca Allahın buyurduğu kimidir: *"Lakin insanların çoxsu bilməzlər"*[2] (yəni əksəriyyəti savadsızdırlar).

Onların təbliğat metodlarından da bəlli olduğu kimi, onlar yuxarıda sadalanan məsələlərin, yəni inanc, ibadət və əxlaqi məsələlərin ən önəmlisi sayılan etiqadi mövzulara tamamilə biganə yanaşmış, bununla da nəinki islam Peyğəmbərinin ﷺ, hətta bütün peyğəmbərlərin başladıqları islah yolundan da üz döndərmişlər. Uca Allah *"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun", – deyə, elçi göndərdik"*[3] ayəsində bunu bəyan etmişdir. Onlar, hər bir müsəlmana məlum olduğu kimi, islamın ilk rüknü və ən mühüm əsası sayılan, habelə rəsulların ilki olan Nuhun عليه السلام min ilə yaxın müddət içərisində təbliğ etdiyi tövhid əsasına ehtimam göstərməmişlər. Hər kəsə bəllidir ki, bizim dinimizdə olduğu kimi, əvvəlki şəriətlərdə ibadətlərin və qarşılıqlı münasibətlərin hökmləri təfsilatlı şəkildə deyildi. Çünki islam bütün dinlərin və şəriətlərin sonuncusudur. Nuhun عليه السلام doqquz yüz əlli il qövmü ilə

---

[1] Deməli, elmdən yoxsul olan kəslər də başqalarına elm verə bilməz.
[2] Əl-Əraf, 187
[3] Ən-Nəhl, 36

birlikdə yaşamasına, bütün ömrünü və diqqətini tövhid etiqadına sərf etməsinə baxmayaraq, qövmü onun bu dəvətindən üz döndərmişdi. Uca Allah bunu Qurani-Kərimdə belə açıqlayır: *“Və (özlərinə tabe olanlara) dedilər: "Öz məbudlarınızı tərk etməyin; Vəddi, Suvanı, Yəğusu, Yəuqu və Nəsri tərk etməyin!”* [1] Bu deyilənlər qəti şəkildə onu göstərir ki, həqiqi islamı təbliğ edənlərin daima ehtimam göstərmələri vacib olan əsas məsələ tövhidə dəvət olmalıdır. Uca Allahın *“Bil ki, Allahdan başqa ibadətə layiq olan heç bir məbud yoxdur”*[2] kəlamı da özündə bunu əks etdirir.

Peyğəmbərimizin ﷺ özü də buna əməl etmiş və əshabına da bunu öyrətmişdir. Əməlinə gəlincə, bu haqda araşdırma aparmağa lüzum yoxdur. Çünki onun ﷺ Məkkə dönəmində, demək olar ki, bütün fəaliyyəti və təbliğatı məhz qövmünü heç bir şəriki olmayan Allaha ibadət etməyə çağırmaq olmuşdur. Bunu əshabına aşılamasına gəlincə, misal olaraq, Buxari və Müslimin Ənəs ibn Malikdən ؓ rəvayət etdikləri bu hədisi qeyd etmək olar: “Allah rəsulu ﷺ Muazı ؓ (islamı təbliğ etmək məqsədilə) Yəmənə göndərərkən ona belə demişdir: *“Onları ilk öncə “lə iləhə illallah” şəhadətinə dəvət et! Əgər bu işdə sənə tabe olsalar...””*[3] İnşallah, bu məlum və məşhur bir hədisdir.

Deməli, Allah rəsulu ﷺ əshabına ilk növbədə elə özünün də ilk başladığı işə – tövhid dəvətinə başlamalarını əmr etmişdir. Şəkk yoxdur ki, öz dillərində deyilən sözü anlamaq baxımından Peyğəmbərin ﷺ zamanındakı müşrik ərəblər ilə günümüzün əksər müsəlman ərəbləri arasında böyük fərq vardır. Belə ki, müsəlman ərəblərə “lə iləhə illallah” şəhadətini təlqin etməyə ehtiyac yoxdur. Çünki onlar etiqadlarının, məzhəb və təriqətlərinin fərqliliyinə baxmayaraq, bu kəlməni iqrar edirlər. Onların hamısı “lə iləhə illallah” şəhadətini dilə gətirsələr də, həqiqətdə bu gözəl kəlmənin mənasını daha geniş mənada anlamalarına ehtiyacları vardır. Bax

---

[1] Nuh, 23
[2] Muhəmməd, 19
[3] Hədis səhihdir. Hədisi Buxari (1395), Müslim (19), Əbu Davud (1584) və Tirmizi (625) İbn Abbasdan ؓ rəvayət etmişlər.

bu onlar ilə müşrik ərəblər arasındakı əsas fərqdir. Müşrik ərəblər Peyğəmbərin ﷺ onlardan nə istədiyini çox yaxşı anlayırdılar və bu səbəbdən də Allah rəsulu ﷺ onları "lə iləhə illallah" şəhadətinə dəvət etdikdə onlar, Quranın da xəbər verdiyi kimi, bu kəlməni deməkdən boyun qaçırdılar və təkəbbürlülük etdilər[1]. Nə üçün təkəbbürlülük göstərdilər və qəbul etmədilər? Çünki onlar bu kəlmənin mənası və bu kəlmənin onlardan nələri tələb etdiyini çox yaxşı bilirdilər. Bilirdilər ki, bu kəlmə onlardan Allahla yanaşı şəriklər qərar verməməyi və Allahdan başqasına ibadət etməməyi tələb edir. Onlar isə Allahdan başqasına nəzir deyir, qurbanlar kəsir dua və təvəssül edirdilər. Həmçinin Allahdan qeyrisindən mədət umur və Ondan başqasının hökmü ilə mühakimə olunurdular. Bütün bunlar onların məlum olan şirk əməlləri idi. Buna rəğmən, onlar bu kimi əməllərin "lə iləhə illallah" şəhadətinə zidd olduğunu və ərəb dili baxımından bu gözəl kəlmənin, yəni "lə iləhə illallah" şəhadətinin onlardan bu cür əməlləri tərk etmələrini tələb etdiyini yaxşı anlayırdılar.

### ۞ *Bu gün müsəlmanların əksəriyyəti "lə iləhə illallah"ın mənasını tam anlamı ilə qavramır.*

Bu gün "lə iləhə illallah" şəhadətini iqrar edən müsəlmanların əksəriyyəti nəinki onun mənasını yaxşı bilmirlər, hətta, ola bilsin ki, onu tamamilə əks mənada anlayırlar. Buna dair bir misal çəkim. Onlardan bəziləri[2] "lə iləhə illallah"ın mənasından bəhs edən bir kitab təlif etmiş və orada bu kəlmənin mənasını "Allahdan başqa allah (rəbb) yoxdur" şəklində izah etmişdir. Bu məna isə elə Məkkə müşriklərinin qəbul edib inandıqları bir məna idi, lakin bu imanları onlara heç bir fayda vermədi. Uca Allah onların etiqadları haqda xəbər verərək buyurur: *"Əgər sən onlardan: "Göyləri və*

---

[1] İmam Əlbani burada əs-Saffat surəsi, 35-36-cı ayələrə işarə edir: *"Çünki onlara: "Allahdan başqa ibadətə layiq olan məbud yoxdur!" – deyildikdə təkəbbürlülük göstərir və deyirdilər: "Məgər bir məcnun şairə görə məbudlarımızı tərk edəcəyik?"*

[2] Suriyada əlli ildən bəri sufiliyin "əş-Şəziliyyə" təriqətinin liderlərindən biri olmuş şeyx Muhəmməd əl-Həşimi nəzərdə tutulur.

*yeri kim yaratmışdır?" – deyə soruşsan, onlar hökmən: "Allah!" – deyəcəklər"*[1]. Deməli, müşriklər etiqad edirdilər ki, bu kainatın tək və yeganə bir xaliqi vardır, lakin onlar bu etiqadlarına rəğmən, ibadətdə Uca Allaha şəriklər qoşurdular. Onlar inanırdılar ki, rəbb (yaradan) birdir, lakin məbudların (ilahların) çox olduğunu etiqad edirdilər. Bu səbəbdən də Uca Allah "Özündən başqasına ibadət" adlandırdığı bu etiqadı rədd edərək belə buyurmuşdur: *"Allahı qoyub başqalarını özlərinə dost tutanlar: "Biz onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik", – deyirlər"*[2]. Müşriklər bilirdilər ki, "lə iləhə illallah" kəlməsi Allahdan qeyri ibadət olunan bütün ilahları tərk etməyi tələb edir, lakin bu gün müsəlmanların əksəriyyəti bu gözəl kəlməni – "lə iləhə illallah" şəhadətini "Allahdan başqa allah (rəbb) yoxdur" kimi izah edirlər. Müsəlman biri "lə iləhə illallah" deməsinə rəğmən, Allahla yanaşı başqasına da ibadət edirsə, o zahirən müsəlman olsa da, etiqad baxımından müşriklərlə eynidir. Çünki o, "lə iləhə illallah" şəhadətini iqrar edir və bununla da zahirən müsəlman sayılır. Bütün bunlar bir islam təbliğatçısı kimi bizim hamımızdan insanları tövhid etiqadına çağırmağımızı və "lə iləhə illallah"ın mənasını bilməyən kəslərə dəlillərlə bunu isbat etməyimizi tələb edir. Müşrik isə "lə iləhə illallah" şəhadətini iqrar etməkdən imtina etdiyi üçün nə zahirən, nə də batinən müsəlman sayılır. Lakin bu gün müsəlmanların əksəriyyətinə gəlincə, onlar müsəlmandırlar. Çünki Peyğəmbər ﷺ belə demişdir: *"Onlar bu kəlməni ("lə iləhə illallah"ı) desələr, bu kəlmənin haqqı istisna olmaqla, öz mallarını və canlarını məndən qorumuş (zəmanət altına almış) olacaqlar. Hesabları isə Allaha aiddir"*[3].

Buna görə də nadir hallarda işlətdiyim bir kəlməni demək istərdim. Bu kəlmənin mənasını anlamaq baxımından hal-hazırda əksər müsəlmanların halı cahiliyyət ərəblərinin halından daha pisdir. Çünki müşrik ərəblər bu kəlmənin mənasını anlayır, lakin

---

[1] Loğman, 25
[2] Əz-Zumər, 3
[3] Hədis səhihdir. Hədisi Buxari (25), Müslim (22) və digərləri Abdullah ibn Ömərdən ؓ rəvayət etmişdir.

ona iman etmirdilər. Günümüzün əksər müsəlmanları isə etiqad etmədikləri (mənasını tam anlamadıqları) bir kəlməni deyirlər. Onlar "lə iləhə illallah" deyir, lakin bu kəlmənin ehtiva etdiyi mənaya haqqı ilə etiqad etmirlər [1]. Bu səbəbdən mən belə düşünürəm ki, həqiqi islam təbliğatçıları gərək dəvətlərini məhz bu kəlmə ətrafında qursunlar, ilk növbədə bu kəlmənin mənasını mücməl şəkildə bəyan etsinlər, daha sonra isə bu kəlmənin tələblərini, yəni ibadətin hər növünün məhz Allah üçün edilməsinin gərəkliliyini təfsilatlı bir şəkildə açıqlasınlar. Çünki Uca Allah Məkkə müşriklərinin *"Biz onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə, ibadət edirik"*[2] sözü barədə xəbər verərkən Allahdan qeyrisi üçün edilmiş hər bir ibadəti "lə iləhə illallah" kəlməsinə qarşı küfr saymışdır[3]. Bu səbəbdən mən bu gün deyirəm ki, şəhadət kəlməsinin mənasını izah etmədən müsəlmanları (hər hansı bir şüar ətrafında) bir yerə toplayıb, sonra da onları zəlalət içində tərk etməyin heç bir faydası yoxdur. Bunun onlara nəinki axirətdə, heç dünya həyatında da bir faydası olmayacaqdır. Biz Peyğəmbərin ﷺ: *"Kim təmiz ürəklə "lə iləhə illallah" şəhadətini iqrar edərsə, Uca Allah onun cismini Cəhənnəm oduna haram edər"* sözünü və digər rəvayətdə *"Kim təmiz ürəklə "lə iləhə illallah" şəhadətini iqrar edərsə, Cənnətə daxil olar"*[4] hədisini bilirik. Bu kəlməni xalis qəlblə deyən kəs sıxıntı və əzaba düçar olsa belə, sonda onun Cənnətə daxil olmasına zəmanət vermək mümkündür. Ola bilsin ki, bu kəlməyə

---

[1] Onlar qəbirlərə ibadət edir, ölülərə dua edir və Allahdan qeyriləri üçün qurbanlar kəsirlər. Bu, təriqət əhlinin, sufi və rafizilərin halı və etiqadlarının həqiqətidir. Belə ki, qəbirləri həcc etmək, tavaf etmək, şirk ocaqları tikmək, övliyalardan mədət ummaq, onlara and içmək bu kəslərin dəyişməz əqidəsi sayılır.

[2] Əz-Zumər, 3

[3] Belə ki, Uca Allah *"Biz onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə, ibadət edirik"* – sözünü deyənləri ayənin əvvəlində *"Allahı qoyub başqalarını özlərinə dost tutanlar"* kimi vəsf etmiş və ayənin sonunda isə onların kafir olduqlarını bəyan edərək belə buyurmuşdur: *"Şübhəsiz ki, Allah yalançı və kafirləri doğru yola yönəltməz"* (Əz-Zumər, 3).

[4] Hədis səhihdir. Hədis Əhməd (5/236) və İbn Hibban (4) rəvayət etmiş, imam Əlbani "Silsilə əs-səhihə" (3355) də səhih olduğunu qeyd etmişdir.

doğru-düzgün bir şəkildə etiqad edən kəs bu dünyada yol verdiyi günah və asiliklərə görə əzaba düçar olsun, lakin belə birisinin son dönüş yeri Cənnət olacaqdır. Bunun əksinə, iman qəlbinə daxil olmadığı halda bu kəlməni yalnız dildə iqrar edən biri, ola bilsin ki, dünya həyatında bu kəlmənin faydasını görsün və bu kəlməni söyləməsi ilə, güc və hökmranlıq müsəlmanların əlində olduğu təqdirdə, öz canını ölümdən və savaşdan qurtarsın, lakin axirətdə bunun ona heç bir faydası olmayacaqdır. Şəhadət kəlməsinin axirətdə insana fayda verməsi üçün ilk növbədə onun mənasını anlaması, daha sonra da ehtiva etdiyi bu mənaya etiqad etməsi şərtdir. Çünki mücərrəd fəhm kifayət etmir. Anlamaqla yanaşı başa düşdüyü həmin mənaya iman etməsi də labüddür. Bu, kiçik bir qeyddir. Belə hesab edirəm ki, insanların çoxu bundan bixəbərdir. Anlamaq hələ iman etmək demək deyildir. Bir kəsin iman əhli olması üçün hər ikisinin (həm anlamaq, həm də iman gətirmək) də bir yerdə olması lazımdır. Belə ki, kitab əhlindən – yəhudi və xristianlardan çoxu bilirdi ki, Muhəmməd ﷺ peyğəmbərlik və elçilik iddiasında haqlıdır. Rəbbimiz onların bu bilgilərinə şahidlik edərək belə buyurur: *“Kitab (Tövrat və İncil) verdiyimiz şəxslər onu (Peyğəmbəri) öz oğullarını tanıdıqları kimi tanıyırlar”*[1]. Buna rəğmən, bu bilgi Allah qatında onlara heç bir fayda vermədi. Nə üçün? Çünki onlar onu peyğəmbərlik və elçilik iddiasında təsdiqləmədilər. Çünki elm və bilik imandan öncə gəlsə də, təkbaşına kifayət etmir. Əksinə, biliklə birgə iman və itaətin olması zəruridir. İzzət və Cəlal sahibi olan Allah Öz Kitabında belə buyurur: *“Bil ki, Allahdan başqa ibadətə layiq olan heç bir məbud yoxdur. Öz günahlarının bağışlanmasını dilə...”*[2].

---

[1] Əl-Bəqərə, 146, əl-Ənam, 20.

[2] Muhəmməd, 19. İmam Əlbaninin bu məqamda dəlil gətirdiyi ayəyə diqqət yetirək. Ayənin əvvəlində imandan, yəni şəhadət kəlməsindən öncə Uca Allah elmi, yəni bu kəlmənin mənasını bilməyi əmr edərək buyurur: “*Bil ki...”* Şəhadət kəlməsindən sonra da Uca Allah əməli əmr edərək belə buyurur: “*Öz günahlarının bağışlanmasını dilə...”* Deməli, bu ayədə Uca Allah ilk növbədə şəhadət kəlməsinin mənasını bilməyi, sonra bu kəlməni iman edərək iqrar etməyi, daha sonra isə əməli əmr etmişdir.

Deməli, dili ilə "lə iləhə illallah" deyən müsəlman gərək ilk növbədə bu kəlmənin mənasını mücməl şəkildə bilsin, daha sonra isə təfsilatlı şəkildə öyrənsin. Şəhadət kəlməsi barədə bayaq qeyd etdiyim hədislər bu kəlmənin mənasını bilən, onu təsdiq edən və iman gətirən şəxsə aiddir. Həmin hədislərin birində Allah rəsulu ﷺ bayaq qeyd etdiyim təfsilata işarə edərək belə demişdir: *"Kim: "Lə iləhə illallah", – deyərsə, bir gün gələr, bu kəlmə ona fayda verər"*[1].

Yəni bu gözəl kəlmə onun mənasını bildikdən sonra insanı Cəhənnəmdə əbədi qalmaqdan xilas edir. Yadda qalsın deyə, bir daha təkrar edirəm: ola bilsin ki, bu kəlməni iqrar edən onun tələblərinə uyğun olaraq saleh əməlləri haqqı ilə əda etməsin, asiliklərdən çəkinməsin. Lakin böyük şirkdən uzaq durduğu və imanın şərti sayılan qəlb əməllərini – bəzi alimlərin rəyinə əsasən, zahiri əməllər də bura daxildir – həyata keçirdiyi müddətcə Allahın istəyi altında olacaqdır:[2] ola bilsin ki, yol verdiyi asiliklərinə, günahlarına və tərk etdiyi, səhlənkar yanaşdığı vaciblərə (ibadətlərə) görə Cəhənnəmə vasil olsun, sonra isə bu gözəl kəlmə onu ordan xilas etsin, yaxud Uca Allah Öz lütfü və rəhməti ilə onu əfv etsin (və birbaşa Cənnətə daxil olsun). Yuxarıda qeyd olunan *"Kim: "Lə iləhə illallah", – deyərsə, bir gün gələr, bu kəlmə ona fayda verər"* hədisinin mənası bax budur. Lakin kim bu kəlmənin mənasını dərk etmədən, yaxud mənasını bildiyi halda, ona iman etmədən, sadəcə olaraq, dili ilə tələffüz edərsə, bu halda onun söylədiyi "lə iləhə illallah" kəlməsinin ona axirətdə heç bir faydası olmayacaqdır. Dünya həyatında isə islam hakimiyyəti altında (müsəlmanlar arasında) yaşadığı müddətcə fayda verəcəkdir[3].

---

[1] Hədis səhihdir. İmam Əlbani "Silsilə əs-səhihə"də (1932) bu hədisin səhih olduğunu qeyd etmiş, hədisin Əbu Səid əl-Ərabinin "əl-Mucəm", Əbu Nueymin "əl-Hilyə" (5/46) və Təbəraninin "əl-Mucəmul-avsat" (6533) əsərlərində yer aldığını demişdir. Hədisi Əbu Hureyrə ﷺ rəvayət etmişdir.

[2] Bax bu saleh sələflərin (səhabə, tabiin və onlara tabe olanların) etiqadıdır. Bu bizimlə xəvaric və murciələr arasında olan əsas fərqdir.

[3] Yəni islam diyarında bu kəlməni dilə gətirən kimliyindən asılı olmayaraq hər kəslə müsəlman kimi rəftar edilməkdədir, hətta qəlbi ilə bu kəlməni inkar edən

Buna görə də hər bir cəmiyyətdə, yaxud Allahın nazil etdiyi qanunlarla idarə olunan islam dövləti qurmaq və ya müsəlman cəmiyyəti yaratmaq istəyən və buna səy göstərən hər bir islami camaatlarda tövhid etiqadını təbliğ etməyə qarşı xüsusi bir səy və diqqət olmalıdır. Bu camaatlar və ya bu bu dəstələr Peyğəmbərin ﷺ başladığı üslubla başlamayacaqları müddətcə önlərinə məqsəd qoyduqları və həyata keçirmək istədikləri amallarına heç vaxt nail ola bilməyəcəklər[1].

### ۞ *Etiqadi mövzulara diqqət ayırmağın vacibliyi şəriətin ibadət, muamələ[2], əxlaq və mənəviyyat kimi digər sahələrinə biganə qalmaq anlamını vermir.*

Bir daha nəzərinizə çatdırıram ki, mən şəriətin ən mühüm və əhəmiyyətcə ondan daha aşağı olan məsələlərini bəyan etməklə onu qəsd etmirəm ki, islam dəvətçiləri öz təbliğatlarını yalnız şəhadət kəlməsi və onun mənası üzərində qursunlar. Əksinə, bilmək lazımdır ki, Uca Allah Öz dinini kamala yetirməklə üzərimizdə olan nemətini tamamlamışdır. Deməli, həmin dəvətçilər islamı bütöv bir şəkildə təbliğ etməlidirlər. Xülasə olaraq, onu demək istəyirəm ki, həqiqi islam dəvətçiləri islamın gətirdiyi ən mühüm məsələyə ehtimam göstərməli, yəni "lə iləhə illallah" kimi gözəl kəlməyə əsaslanan düzgün etiqadı

---

münafiq olsa belə. Bu səbəbdən şəhadət kəlməsinin ona bu dünyada faydası dəyəcəkdir. Axirətdə isə hesabı Allaha qalmışdır. Peyğəmbər ﷺ belə demişdir: *"Onlar bu kəlməni ("lə iləhə illallah"ı) desələr, bu kəlmənin haqqı istisna olmaqla, öz mallarını və canlarını məndən qorumuş (zəmanət altına almış) olacaqlar. Hesabları isə Allaha aiddir"* (Buxari, 25 və Müslim, 22).

[1] Burada imam Əlbani bu dəstələrin, bu növ camaatların və cərəyanların haqq üzərində olduğunu qəsd etmir. Bu, imamı tanıyan və onun etiqadına az-çox bələd olan hər kəsə bəlli olan bir məsələdir. Sadəcə olaraq, imam onu demək istəyir ki, bu camaatların çoxu eyni amal (islami cəmiyyət qurmaq) üzrə ittifaq etmiş kəslərdir. Buna rəğmən, hər dəstənin bir təbliğ metodu mövcuddur və demək olar ki, hamısı Peyğəmbərin ﷺ dəvət metodundan uzaqdır. Belə olduğu təqdirdə, onlar qurmasını arzu etdikləri müsəlman cəmiyyətini necə əldə edə bilərlər?!

[2] "Muamələ" dedikdə evlilik, ticarət və s. bu kimi qarşılıqlı münasibətlər nəzərdə tutulur.

müsəlmanlara anlatmağa həris olmalıdırlar. Diqqətinizi yenə də yuxarıda qeyd etdiyim məsələyə yönəltmək istəyirəm. Burada məqsəd müsəlmanın yalnız “lə iləhə illallah”ın mənasının *“Allahdan başqa ibadətə layiq olan haqq məbud yoxdur”* olduğunu bilməsi deyildir. Həmçinin bilmək lazımdır ki, bu kəlmə İzzət və Cəlal sahibi olan Rəbbimizə etdiyimiz ibadətlərin (ibadət məfhumunun) düzgün anlaşılmasını və bu ibadətlərdən heç birinin Ondan qeyrisinə edilməməsini də tələb edir. Belə bir təfsilatın şəhadət kəlməsinin müxtəsər mənası ilə birlikdə qeyd edilməsi zəruridir. Bu səbəbdən mövzu ilə əlaqədar bir və ya bir neçə misal çəkməyim yaxşı olardı. Zənnimcə, belə mövzularda ümumi açıqlamalar kifayət etmir.

Heç bir ibadət növünü Allahdan qeyrisinə yönəltməyən həqiqi tövhid əhli olan müsəlmanların çoxu Quran və sünnədə varid olan bir çox fikirdən, düzgün etiqaddan xəbərsizdirlər. Onların çoxu özündə etiqadi bir məsələni ehtiva edən bir çox ayənin və bəzi hədislərin məğzinə diqqət yetirmədən üzərindən keçib gedirlər. Halbuki bu cür ayə və hədislər Allaha olan imanı kamilləşdirir. Misal olaraq, İzzət və Cəlal sahibi Allahın ucalıq vəsfini, yəni Allahın məxluqatının fövqündə olması məsələsini ələ alaq. Mən təcrübəmdən bilirəm ki, tövhid əhli, sələfi qardaşlarımızın çoxu bizimlə birgə təvil etmədən (kənar mənalara yozmadan) və keyfiyyətinə varmadan Allahın Ərşə ucaldığına etiqad edirlər. Lakin hər hansı bir müasir mötəzili, cəhmi, maturidi və ya əşari gəlib ona ayənin zahiri üzərində qurulmuş bir şübhə atdıqda (halbuki həmin ayənin doğru-düzgün mənasını nə vəsvəsə edənin özü, nə də ki, vəsvəsə olunan bilir) həmin dəqiqə öz etiqadının dürüstlüyü barədə tərəddüd edir və haqdan uzaq düşürlər. Nə üçün? Çünki o, sağlam əqidəni İzzət və Cəlal sahibi olan Rəbbimizin Kitabında və peyğəmbərimiz Muhəmmədin ﷺ hədislərində bəyan edildiyi kimi, hərtərəfli öyrənməmişdir. Beləcə, müasir mötəzili ona deyir: “Uca Allah buyurur: *“Göydə olanın sizi yerə batırmayacağına əminsinizmi?”* [1] Siz də Allahın səmada olduğunu deyirsiniz. Deməli, siz ibadət etdiyiniz ilahınızın bir

[1] əl-Mulk, 15-16

məkanda – məxluq (yaradılmış) olan səmanın içində olduğuna etiqad edirsiniz. Nəticə etibarı ilə, o, önündəki şəxsə şübhə salır.

### ۞ *Düzgün etiqadın və onun tərkib hissələrinin insanların çoxuna tam aydın olmaması.*

Bu misalla mən onu izah etmək istəyirəm ki, tövhid etiqadı tam mənası ilə, yəni tərkib hissələri və tələbləri ilə birgə nəinki əşari, maturidi və cəhmi etiqadında olanlara, hətta, çox təəssüflər olsun ki, sələfi (əhli-sünnət) etiqadında olanların bir çoxuna tam aydın deyildir. Bu misalla mən onu vurğulamaq istəyirəm ki, məsələ bu gün bizimlə yanaşı Quran və sünnəyə çağıran bəzi dəvətçilərin təsəvvür etdikləri kimi elə də asan deyildir. Yenə təkrar edirəm: məsələ bəzilərinin iddia etdiyi kimi elə də asan deyildir. Səbəbi isə, yuxarıda izah etdiyim kimi, "lə iləhə illallah" kəlməsini iqrar etməyə dəvət olunan və bu kəlmənin mənasını bildiklərinə görə onu dilə gətirməkdən boyun qaçıran keçmiş cahiliyyət müşrikləri ilə zamanımızda bu kəlməni deyib, lakin mənasını düzgün şəkildə anlamayan əksər müsəlmanların arasında olan fərqdir. Bu fərq hal-hazırda bu kimi etiqadi mövzularda, yəni Uca Allahın bütün məxluqatın fövqündə olması məsələsində də özünü göstərir. Bu məsələnin izaha ehtiyacı vardır. Belə ki, hər hansı bir müsəlmanın aşağıdakı hədisdə qeyd olunan "fi" ön qoşmasının (məkan bildirən) zərflik mənasında olmadığını bilmədən *"Rəhman Ərşə yüksəldi"*[1] və ya *"Yer üzündə olanlara rəhm edin ki, göydə olan da sizə rəhm etsin"*[2] etiqadında olması kifayət etmir. Bu, eynilə Uca Allahın *"Göydə olanın sizi yerə batırmayacağına əminsinizmi?"*[3] kəlamında keçən "fi" ön qoşması kimidir[4] və mənası da "üzərində"

---

[1] Ta-ha, 5

[2] Hədis səhihdir. Əbu Davud (4941), Tirmizi (1925) rəvayət etmiş, Əlbani isə "Silsilə əs-səhihə"də (925) səhih olduğunu demişdir.

[3] əl-Mulk, 15-16

[4] ***Müqayisə üçün bax!***

"أَأَمِنْتُمْ مَنْ فِي السَّمَاءِ أَنْ يَخْسِفَ بِكُمُ الْأَرْضَ"

*"Göydə olanın sizi yerə batırmayacağına əminsinizmi?"*

deməkdir[1]. Bunun dəlilləri həddən ziyadə çoxdur. Elə həmin dəlillərdən biri də bayaq qeyd etdiyim və camaat arasında dillər əzbəri olan hədisdir. Həmin hədis rəvayət yollarının toplusu ilə səhih sayılır. Hədisdə deyilir: *“Yerdə olanlara rəhm edin ki...”* Təbii ki burada *“yerdə olanlar”* dedikdə yerin içində, yəni torpağın altında yaşayan qurdlar, həşəratlar deyil, yer üzündə yaşayan insan və heyvanlar nəzərdə tutulur. Bu da Peyğəmbərin ﷺ *“...göydə olan da sizə rəhm etsin”* kəlamı ilə eyni mənanı daşıyır. Yəni *“göydə olan”* dedikdə “göyün fövqündə olan” mənası nəzərdə tutulur. Haqq dəvətə icabət edənlər gərək bu kimi məsələlərdən agah olsunlar. Buna dair başqa bir misal “Qoyun otaran cariyə” hədisidir. Bu hədis çoxuna bəlli olan məşhur bir hədisdir. Həmin hədisdən mövzumuz ilə əlaqəli olan hissəni qeyd edəcəyəm. Belə ki, Peyğəmbər ﷺ cariyəyə: *“Allah haradadır?”* – deyə sual vermiş, o da: “Səmadadır”, – demişdir[2]. Cariyənin “Allah səmadadır” cavabına və Peyğəmbərin ﷺ də bunu təsdiq etməsinə baxmayaraq, bu gün “Allah haradadır?” sualını əl-Əzhar Universitetinin böyük şeyxlərinə versən, sənə “Hər yerdədir” cavabını verərlər. Nə üçün? Çünki o qadın müasir terminlə ifadə etməli olsaq, “sələfi bir mühit”də yaşamış, digər yad mühitlərə

---

”ارْحَمُوا مَنْ فِي الْأَرْضِ يَرْحَمْكُمْ مَنْ فِي السَّمَاءِ“

*“Yer üzündə olanlara rəhm edin ki, göydə olan da sizə rəhm etsin”*.

[1]Ayədə “göydə olan” dedikdə “göyün içində” deyil, “üzərində, fövqündə olan” mənası nəzərdə tutulur ki, bu da ərəb dilində bilinən bir məsələdir. Belə ki, Uca Alah buyurur: { سِيرُوا فِي الأرض } *“Yer üzündə gəzib dolaşın”* (Əl-Ənam, 11).

[2] Hədis səhihdir. Hədisi Müslim (537), Əbu Davud (930), Nəsai (1/14-18) Muaviyə ibn Hakəm əs-Suləmi adlı səhabədən rəvayət etmişlər.

***Qeyd:*** İmam Zəhəbi demişdir: “Bu hədisdə iki önəmli nöqtə var. Birincisi, müsəlmanın “Allah haradadır?” sualını, ikincisi isə soruşulanın “Allah səmadadır” cavabını verməsinin icazəli olması. Bu iki məsələni inkar edən kəs yalnız və yalnız Peyğəmbərə ﷺ etiraz etmişdir” (“Əl-Ülüvv” 50, səh. 28).

Əbdülğani əl-Məqdisi bu hədis barədə belə demişdir: “Peyğəmbər ﷺ açıq bir şəkildə: “Allah haradadır?” – deyə sual verdikdən sonra “Allah haradadır?” sualını icazəli görməyəndən daha cahil, daha ağılsız və daha azğın kim ola bilər?” (“Əl-İqtisad fil-etiqad” səh. 89)

qarışmamış və ona ünvanlanan suala da fitrətin tələbinə uyğun cavab vermişdir. Necə deyərlər, həmin qadın "Peyğəmbər məktəbi"nin yetirməsi – məzunu idi. Bu məktəb qadın, kişi ayırımı etmədən hər kəsi öz bağrına basan və bütün cəmiyyəti yetişdirən, ehtiva edən bir məktəb idi. Bu səbəbdən də fitrəti yad mühitlə korlanmamış çoban bir qadın düzgün etiqada sahib ola bildi. Beləcə, həmin qadın bu gün Quran və sünnəni bildiyi iddia edən bir çoxlarının xəbərdar olmadığı etiqaddan – Quran və sünnəyə əsaslanan sağlam əqidədən agah idi. Quran və sünnədə qeyd olunmasına rəğmən, bu gün çoxları Rəbbinin harada olduğunu bilmir. Bir sözlə, bu gün müsəlmanlar arasında mövzu ilə əlaqədar tam aydın bir təsəvvür yoxdur. Belə ki, mən demirəm, çoban bir qadına, hətta ümmətə və ya hansısa bir cəmiyyətə rəhbərlik edən kəsə bu sual verilsə, Allahın rəhm etdiyi azsaylı şəxslər istisna olmaqla, o da bir çoxları kimi bu sualın cavabında çaşbaş qalacaqdır[1].

---

[1] İmam Əlbaninin bu bölümdə söz açdığı mövzudan əldə etdiyimiz əlavə bir fayda da (bu faydanı elə imamın özü də başqa bir dərsində qeyd etmişdir) "dindən bilinməsi zəruri olan və zəruri olmayan" məsələsi və bunun üzərində qurulan təkfir mövzusu ilə əlaqədardır. Belə ki, bəziləri iddia etmişdir ki, Allahdan qeyrisinə ibadət mövzusunda cahillik üzr sayılmır. Çünki bu mövzu dindən bilinməsi zəruri olan məsələlərdəndir. Beləcə, etiqadi mövzuları "dindən bilinməsi zəruri olan və olmayan", yəni "dinin əslindən olan və olmayan", yaxud "zahir (aşkar) və xəfi (gizli) məsələlər" kimi qisimlərə ayırmış, "zahir" məsələlərdə cahilliyi üzr saydıqları halda, "xəfi" mövzularda üzr saymamışlar. Qəribəsi burasındadır ki, Allahın ad və sifətləri ilə əlaqəli olan mövzuları "xəfi" qisminə daxil etmişlər. Bu yerdə sual olunur ki, bu bölgünü hansı qaydaya əsasən təyin ediblər?! Misal üçün, Allahın "ucalıq" sifəti Quran, sünnə və icma ilə sabit olan, ağlın, hissin və fitrətin dəlalət etdiyi bir məsələdir. Elə isə belə bir mövzu necə olur ki, "xəfi" vəsfi ilə vəsfləndirilir?! Halbuki onların zahir saydıqları "Allahdan qeyrisinə qurban kəsmək icazəli deyildir" mövzusu heç də Allahın "ucalıq" sifəti kimi fitrətin, ağlın və hissin dəlalət etdiyi bir məsələ deyildir. Bəs necə olur ki, bu mövzu dinin əslindən sayıldığı halda, bütün şəri və əqli, hissi və fitri dəlillərin dəlalət etdiyi bir mövzu dinin əslindən hesab olunmur?! Ola bilsin ki, bunun səbəbi əsrlər boyunca müsəlman ümmətində Uca Allahın ad və sifətləri mövzusunda əksər firqələrin azması olmuşdur. Axı bu mövzu "zahir" vəsfi ilə vəsfləndirilsəydi, bu məsələdə zəlalətə düşənlərin cəhaləti onlar üçün üzr sayılmayacaq və nəticədə ümmətin əksəriyyəti təkfir

ediləcəkdi. Beləcə bu problemdən çıxmaq və belə bir çıxılmaza düşməməkdən ötrü Uca Allahın ad və sifətləri mövzusunu "xəfi" qisminə daxil etdilər. Əslində, "zahir və xəfi" kimi məsələlər nisbi məsələlərdir. Yəni bu cür məsələlər zaman, məkan və şəxsə görə dəyişiklik ərz edən məsələlərdir. Ola bilsin ki, hər hansı bir məsələ bir dövrdə və ya bir diyarda insanlara zahir olsun, başqa bir vaxt və ya başqa bir diyarda isə xəfi qalsın. Buna dəlil olaraq da imam Əlbaninin qeyd etdiyi bu mövzunu, yəni "Cariyə" hədisini zikr etmək olar. Fikir verin, nəinki əksər müsəlmanların, hətta əl-Əzhar Universitetinin doktorlarının belə cahil olduqları bir həqiqətdən Peyğəmbərin ﷺ cəmiyyətində yetişmiş çoban bir qadın xəbərdar idi. Elə isə savadsız, çoban bir qadının agah olduğu bir məsələ necə zahir bir məsələ hesab edilməsin? Bəli, əslində, bu mövzu Allah rəsulunun ﷺ zamanında nəinki möminlər, hətta müşriklər tərəfindən də bilinən və iqrar edilən zahir bir məsələ idi. Lakin, çox təəssüflər olsun ki, onların zamanında hər kəsə gün kimi aydın olan bir məsələ zaman keçdikcə müsəlmanların əksəriyyətinə qaranlıq qaldı. Eləcə də digər mövzular. Ümmətin əvvəlinə bəlli (zahir) olan "Allahdan qeyrisinə dua etməyin, qurban kəsməyin və s. əməllərin icazəli olmadığı və şirk olduğu" kimi mövzular zaman keçdikcə ümmət üçün qaranlıq qaldı və aydın olmayan, ətrafı şübhələrlə bəzədilmiş bir mövzuya çevrildi. Hansı əsasa görə, bu kimi mövzuları bir-birindən ayırıb: "Bu, ümmətə qaranlıq qala bilər, bu isə qaranlıq qala bilməz" və ya "Bu mövzuda cahillik üzr ola bilər, bu mövzuda isə üzr ola bilməz", – deyirsiniz? Əgər "ibadət mövzusu Quran və sünnədə açıq bir şəkildə bəyan edilmiş" deyilsə, cavabımız belə olacaqdır: Allahın "ucalıq" sifəti də Quran və sünnədə yüzlərlə ayə və hədisdə bəyan edilmiş, üstəlik ağıl, hiss və fitrətin də dəlalət etdiyi bir mövzudur. Əgər "təəssüflər olsun ki, bu mövzuda ümməti azdırmağa müvəffəq oldular" deyilsə, cavabımız qısa olaraq belədir: həmin mövzuda ümməti azdırmağa müvəffəq olanlar ibadət mövzusunda da ümməti azdırmağa müvəffəq oldular. Şeyx İbn Useymin mövzu ilə əlaqədar belə demişdir: "Kimsə deyə bilər ki, mən övliyalara qurban kəsməyi özlərinə adət etmiş camaatın içində böyümüşəm və bu əməlin haram olduğunu da bilmirəm. Deməli, bu məsələ həmin kəsə aydın olmayıb, yəni həmin kəsə gizli – xəfi qalıb. Çünki bir şeyin zahir və ya xəfi olması nisbi bir məsələdir. Ola bilsin ki, sənə gizli qalan bir şey mənə nisbətdə zahir olsun və ya mənə gizli qalan bir şey sənə nisbətdə zahir olsun" ("Liqaət bab əl-məftuh" 48, 15-ci sual).

۞ ***Sağlam əqidəni təbliğ etmək ciddiyyət, davamiyyət və böyük səy tələb edir.***

Deməli, tövhid etiqadını təbliğ etmək və bu etiqadı insanların qəlblərində yerləşdirməkdən ötrü Peyğəmbərin ﷺ zamanındakı kimi ayələrin üzərindən keçməklə deyil, əksinə, təfsilatına vararaq və mənasını dərk edərək oxumalıyıq. Birincisi, onlar ərəb dilindəki ifadələri asanlıqla anlayırdılar. İkincisi, onların etiqadlarında sağlam əqidəyə zidd olan, fəlsəfə və kəlam elmindən doğan inhiraf (əyrilik) yox idi. Bizim bugünkü halımız isə ilkin müsəlmanların halından tamamilə fərqlənir. Hal-hazırkı zamanda sağlam əqidəyə dəvət etməyin o dövrdəki kimi asan olduğunu təsəvvür etmək doğru olmazdı. İstərdim ki, öz fikrimi mübahisəsiz şəkildə hər kəsin qəbul edəcəyi bir misalla izah edim. Məlumdur ki, Peyğəmbərin ﷺ zamanında səhabələr hədisi birbaşa ondan, tabiinlər isə səhabələrdən eşidirdilər. Beləcə, ən xeyirli ilk üç əsrin üzərində duraraq bir sual verək: o dövrdə “Hədis elmi” adlanan bir elm var idimi? Əlbətdə ki, xeyr! Bəs o dövrdə “Cərh və tədil” (ravilərin tənqidi və tərifi) adlı bir elm olmuşdurmu? Əlbətdə ki, xeyr! Günümüzdə isə bu iki elm hər bir şəriət tələbəsi üçün zəruri və öyrənilməsi “fərzül-kifayə”[1] olan bir elmdir. Çünki məhz bu yolla günümüzdə yaşayan alim hər hansı bir hədisin səhih (etibarlı) və ya zəif olduğunu müəyyənləşdirə bilər. Bu iş günümüzdə səhabələrin zamanında olduğu kimi asan deyildir. Çünki səhabə hədisi İzzət və Cəlal sahibi Allahın təriflədiyi digər səhabələrdən götürərdi. Biz sözlə, elmin saflığı və elm mənbələrinin etibarlılığı baxımından o dövrdə asan görülən bu işlər hal-hazırda asan başa gəlmir. İlk əsrlərdə yaşayan müsəlmanların qarşılaşmadığı, günümüzdə isə bizi hər tərəfdən əhatə edən problemləri diqqətdə saxlamalı və onların həlli istiqamətində lazımi tədbirləri görməliyik. Belə ki, yanlış əqidələr bir çox problemlərin əmələ gəlməsinə, doğru yoldan və sağlam etiqaddan uzaq düşmüş bidət əhlinin müxtəlif adlar altında çoxsaylı şübhələrinin ortaya

[1] Fərzül-kifayə – fərdi şəkildə deyil, toplum halında vacib olan, bir qism müsəlmanın icra etməsi ilə digərlərinin üzərindən düşən bir əməldir.

çıxmasına səbəb olmuşdur. Buna misal olaraq kəlam elminə mənsub olan kəslərin Quran və sünnəyə dəvət adı altında ortaya atdıqları şübhələri qeyd etmək olar.

Yaxşı olardı ki, bu məqamda mövzu ilə əlaqədar bəzi hədisləri qeyd edək. Peyğəmbər ﷺ "Qəriblər" haqda söz açdığı hədisində[1] belə demişdir: *"Onlardan birinə əlli nəfərin savabı vardır"*. Səhabələr: "Ey Allahın rəsulu, bizdən əlli nəfərin, yoxsa onlardan?" – deyə soruşduqda o: *"Sizdən"*, – demişdir[2].

Bu, zamanımızda islam dininə qarşı olan qəribliyin (yadlığın) bir nəticəsidir ki, bu qəriblik ilk əsrlərdə mövcud deyildir. Heç şübhəsiz ki, islamın ilk çağlarında olan qəriblik bariz şirk ilə xalis tövhid, aşkar küfr ilə sarsılmaz iman arasında olan qəriblik idi. Günümüzdə isə problemlərin çoxu elə müsəlmanların öz aralarındadır. Belə ki, əksər müsəlmanların tövhidi nöqsanlarla doludur. İbadətləri Allahdan qeyrisinə yönəldən kəs belə iman əhli olduğunu iddia edir. Gərək ilk növbədə bu məsələyə diqqət olunsun.

Daha sonra bəzi insanların: "Gərək biz artıq növbəti mərhələyə – tövhidə dəvət mərhələsinə deyil, məhz siyasi məsələlərə keçid mərhələsinə qədəm qoyaq", – demələri də düzgün deyildir. Çünki islam dininə çağırış haqq olan bir çağırışdır. Bu gün ki ərəblərin halı ərəbləşmiş əcəmlərin halından tam fərqlidir. Buna səbəb isə, onların öz dillərindən uzaq düşmələridir ki, bu da onları Allahın Kitabından və Peyğəmbərin ﷺ sünnəsindən uzaq salmışdır. Bütün bunlardan sonra bizim: "Biz ərəbik və Quran da bizim dildə nazil olmuşdur", – deməyə haqqımız yoxdur. Lap tutalım ki, biz ərəblər, islamı olduğu kimi anladıq. Bu halda belə bizim siyasətlə

---

[1] Həmin hədislərin birində belə deyilir: *"İslam qərib olaraq başladı və qərib olaraq da geri dönəcəkdir. Xoş halına qəriblərin!"* (Müslim, 232).

[2] Hədisin tam versiyası: *"Elə bir zaman gələcəkdir ki, o dövrdə dini yaşamaq əldə köz tutmaq kimi çətin olacaqdır. Həmin vaxt sizin getdiyiniz yol ilə gedən kəslərə əlli nəfərin savabı vardır..."* Hədis səhihdir. Hədisi Təbərani "əl-Kəbir" (10/225, hədis: 10394) əsərində İbn Məsuddan ؓ rəvayət etmişdir. Həmçinin bu hədisi Bəzzar "əz-Zəvaid" (7/282) əsərində Uqbə ibn Qəzvan ؓ adlı səhabədən, Əbu Davud (4341) isə səhabə Əbu Sələbə əl-Xuşənidən ؓ nəql etmişdir. Əlbani "Silsilə əs-səhihə" (494) əsərində bu hədisin səhih olduğunu qeyd etmişdir.

məşğul olmağımız, insanları siyasi proseslərə qoşmağımız zəruri deyildir. Camaatın başını bu kimi işlərlə qatıb onları islamı – əqidə əsaslarını, ibadətləri, muamələ[1] və əxlaqi məsələləri dolğun şəkildə öyrənməkdən yayındırmamalıyıq. Rəbbim buna şahiddir ki, hal-hazırda sayı milyonlara çatan və islam dinini, yəni onun əqidə əsaslarını, ibadətlərini və əxlaqi məsələlərini olduğu kimi anlayan bir xalqın mövcudluğuna inanmıram.

### ۞ *İslah yolu məhz təsfiyə və tərbiyə etmə prinsipinə əsaslanmaqla mümkündür.*

Bu səbəbdən biz daima həqiqi islah yolunun iki əsas təməli sayılan təsfiyə[2] və tərbiyə prinsipləri ətrafında danışır və daima diqqəti bu iki əsasa yönəldirik. Onu da qeyd edim ki, təsfiyə və tərbiyə bir-birinə bağlı iki prinsipdir[3]. Əgər bir ölkədə[4] əqidə istiqamətində (şirk və xurafatlardan) hər hansı bir formada təmizlənmə prosesi gedirsə, şəkk yoxdur ki, bu öz-özlüyündə təqdirəlayiq bir iş sayılır və böyük islam coğrafiyası içində hər hansı bir cəmiyyətdə baş vermiş mühüm bir hadisədir. Buna rəğmən, ibadətlərin məzhəbçiliyin dar çərçivəsindən azad olmasına və səhih hədislərə əsasən əməl olunmasına da ehtiyac vardır[5]. Ola bilsin ki, islam dinini hərtərəfli şəkildə doğru anlayan alimlər mövcuddur, lakin elə hesab etmirəm ki, bir-iki nəfərlə, yaxud on

---

[1] "Muamələ" dedikdə evlilik, ticarət və s. bu kimi qarşılıqlı münasibətlər nəzərdə tutulur.

[2] Təsfiyə – saflaşdırma, təmizləmə deməkdir.

[3] Məlumdur ki, əkinçi bol və təmiz məhsul əldə etməsi üçün, əsasən, iki prinsipə əməl etməlidir. İlk növbədə əkin sahəsini ot-alaqdan təmizləməli, daha sonra təmiz sahəyə toxumunu səpməlidir. İslam dəvəti də eynilə bu cürdür. Dəvətinin uğurlu olmasını təmənna edən hər bir islam təbliğatçısı ilk növbədə dəvət meydanını şirk və xurafatlardan təmizləməli, daha sonra isə insanların qəlblərinə tövhid və sünnə toxumunu səpməli, yəni onları tövhid və sünnə etiqadı üzərində tərbiyə etməlidir.

[4] Böyük ehtimalla, imam burada Səudiyyə Ərəbistanını nəzərdə tutur.

[5] İmam demək istəyir ki, bu təmizlik prosesi təqdirəlayiq bir iş olsa da, kifayət etmir və bununla yanaşı cəmiyyətin sünnəyə tabelik üzərində tərbiyə olunmasına da ehtiyac vardır.

və ya iyirmi şəxslə bu prosesin baş tutması, yəni islamın etiqad, ibadət və əxlaq baxımından yad ünsürlərdən təmizlənməsi mümkün olsun. Azsaylı bir qrupun bu vəzifənin öhdəsindən gəlməsi, yəni islamı ona yad olan ünsürlərdən təmizləməsi və cəmiyyəti düzgün bir şəkildə tərbiyə etməsi qeyri-mümkündür. Günümüzdə isə təsfiyə və tərbiyə etmə prinsipi, demək olar ki, yox səviyyəsindədir.

Bu səbəbdən, şəriət qanunları ilə idarə olunmayan hər hansı bir müsəlman cəmiyyətində bu iki mühüm məsələ [1] öz yerini tapmadıqca siyasi hərəkatlara qoşulmaq cəhdləri pis sonluqla nəticələnəcəkdir. Şəriət qanunları ilə idarə olunan ölkələrə gəldikdə isə, bu cür yerlərdə məşvərət yolu ilə nəsihətləşmək, yaxud hər hansı bir problemi zorakılığa yol vermədən və aləmə car çəkmədən şəriət qaydalarına uyğun gözəl bir şəkildə həll etmək elə siyasi hərəkatları əvəz edir. Lazımı məlumatları (və ya problemləri məsul dairələrə) çatdırmaq öz-özlüyündə öhdəliyin ödənilməsi və məsuliyyətdən azad olma hesab edilir. Həmçinin insanları özlərinə fayda verəcək işlərə, yəni etiqadın, ibadətlərin, əxlaqın və qarşılıqlı münasibətlərin islahına yönəltməyimiz də nəsihətdən sayılır[2].

Ola bilsin, bəziləri elə zənn etsin ki, biz bütün islam coğrafiyasında təsfiyə və tərbiyə etmə prinsipinin bərqərar olmasını istəyirik. Bu heç bizim ağlımızın ucundan belə keçməyən, yuxumuzda belə görmədiyimiz bir şeydir. Çünki bunun reallaşması mümkünsüzdür. Belə ki, Uca Allah Qurani-Kərimdə buyurur: *"Əgər Rəbbin istəsəydi, insanları vahid bir ümmət edərdi. Amma onlar elə hey ixtilafdadırlar"*[3]. Bu insanlar islam dinini doğru şəkildə anlamadıqca, özlərini, ailələrini və ətraflarındakı insanları həqiqi islam ruhunda tərbiyə etmədikcə Rəbbimizin bu vədi onların üzərində gerçəkləşməyəcəkdir.

---

[1] Təsfiyə və tərbiyə etmə prinsipi.
[2] Bilmək lazımdır ki, islam dinində "nəsihət" anlayışı çox genişdir. Bu səbəbdən Peyğəmbərimiz ﷺ belə demişdir: "Din nəsihətdir" (Buxari, 57 və Müslim, 95).
[3] Hud, 118.

### ۞ *Siyasi fəaliyyətlə kim və nə zaman məşğul olmalıdır?*

Hal-hazırda siyasətlə məşğul olmaq adətə çevrilib. Buna rəğmən, biz siyasi fəaliyyəti inkar etmirik, lakin eyni anda biz şəri və məntiqi ardıcıllığın olduğuna, yəni ilk növbədə əqidədən, sonra ibadətdən, daha sonra isə ədəb-əxlaq məsələlərindən başlayaraq bütün bunları tərtibli bir şəkildə düzəltməyin gərəkli olduğuna da inanırıq. Bütün bunlar həyata keçdikdən sonra bir gün gələr, biz də şəri anlamda siyasi mərhələyə qədəm qoyarıq. Belə ki, siyasət (şəri mənada) ümmətin işlərini idarə etməyə deyilir. Elə isə ümmətin işini kim idarə etməlidir? Bu kimi işlər hansısa bir partiya qurucusu, yaxud hərəkat rəhbəri və ya hansısa bir camaatın lideri tərəfindən deyil, müsəlmanlar tərəfindən özünə beyət edilmiş (sədaqət andı içilmiş) əmr sahibləri tərəfindən idarə olunmalıdır. Məhz həmin şəxs günümüzün siyasətini və onun idarəçiliyini bilməlidir. Əgər müsəlmanlar hal-hazırkı dövrdə olduğu kimi, vahid bir ümmət deyillərsə, o zaman hər əmr sahibi öz diyarında bu işi həyata keçirməlidir. Amma bizim bizə aid olmayan bu kimi işlərlə məşğul olmağımıza gəlincə hətta siyasəti düzgün şəkildə bilsək belə, bu bilgimizin bizə heç bir faydası olmayacaqdır. Çünki idarəçilik bizim əlimizdə deyil və biz bu kimi işləri idarə etmək yönündə hər hansı bir qərarı vermək səlahiyyətinə də malik deyilik. Ona görə də bu bizim üçün əbəs, boş və mənasız bir məşğuliyyət olardı. Misal olaraq, bir çox islam diyarında müsəlmanlara qarşı başladılmış müharibələri qeyd etmək istərdim. Məgər özünə beyət edilmiş imamın (əmr sahibinin) idarəçiliyi altında vacib sayılan bir (şəri) cihada sahib olmadığımız halda, müsəlmanları bu cür müharibələrə təşviq etməyimizin bir faydası varmı?! Əlbəttə ki, bunun heç bir faydası yoxdur. Biz bu sözlərimizlə düşmənə qarşı müharibə etməyin vacib olduğunu inkar etmirik. Lakin biz bunun vaxtından əvvəl atılmış bir addım olduğunu deyirik. Ona görə də biz həm özümüzü, həm də dəvət etdiyimiz kəsləri islamı doğru şəkildə anlamağa və düzgün şəkildə tərbiyələnməyə yönəltməliyik. İnsanları faydasız və emosional işlərə yönəltmək onları hər bir müsəlmanın məsul olduğu din təbliğini düzgün anlamaqdan yayındırır. Bu təbliğ isə özündə

etiqadın, ibadətlərin və əxlaqi məsələlərin islahını ehtiva edir. Bu hər bir müsəlmanın üzərində fərdi olaraq vacib hesab edilən bir məsələdir və bu sahədə səhlənkarlığa yol verənlərə heç bir üzür yoxdur. Digər məsələlərə gəldikdə isə, onlardan bəziləri "fərzül-kifayə"[1] olan əməllərdəndir. Buna misal olaraq bu gün "fiqhul-vaqi" (müasir məsələlərin təhlili) olaraq adlandırılan sahəni qeyd etmək olar. Ümumiyyətlə, siyasi fəaliyyətlə məşğul olmaq əmr sahiblərinə aiddir və məhz onlar bu sahədə əməli olaraq nəyəsə nail ola bilərlər. Lakin əllərində hakimiyyət və idarəçilik olmayan bir dəstə insanın siyasi işlərə müdaxilə etməsi və camaatı da daha mühüm işlərdən ayırıb bu kimi məsələlərə cəlb etmələri onları doğru biliklər əldə etməkdən yayındırmaqdadır. Bu, günümüzdə islam adından çıxış edən bir çox partiya və camaatların fəaliyyət metodunda müşahidə etdiyimiz bir haldır. Bilirik ki, onlardan bəziləri düzgün əqidəni, ibadəti, əxlaqi məsələləri öyrənmək və doğru şəkildə anlamaq üçün yanlarına gələn gənclərdən üz çevirib siyasi fəaliyyətə başlamış və Allahın nazil etdiyi qanunlarla hökm verməyən parlamentlərdə üzv olmağa səy göstərmişlər. Bu da öz növbəsində onları daha mühüm olan işlərdən yayındırdı və beləcə onlar belə bir vəziyyətdə lazımsız işlərlə məşğul olmağa başladılar.

***Sualda qeyd olunan bu acınacaqlı halın dəyişməsi üçün müsəlmanın necə tövfə verməsi və vəzifə borcunu necə ödəməsi ilə əlaqəli bunları demək istəyirəm:***

Hər bir müsəlman öz hal-vəziyyətinə uyğun olaraq bu işi görə bilər. Belə ki, siravi müsəlmanlara vacib olmayan elə şeylər vardır ki, məhz elm əhlinə, alimlərə vacibdir. Bu məqamda onu xatırlatmaq istərdim ki, İzzət və Cəlal sahibi Allah Kitabı ilə öz nemətini (dinini) tamamlamış və onu müsəlmanlar üçün həyat düsturu etmişdir. Həmin düsturun bir bəndi də Uca Allahın bu kəlamıdır: *"Əgər bilmirsinizsə, zikr əhlindən soruşun!"*[2] Uca Allah müsəlman cəmiyyətini "alimlər" və "qeyri-alimlər" olaraq

---

[1] "Fərzül-kifayə" – fərdi şəkildə deyil, toplum halında vacib olan və bir qisim müsəlmanın icra etməsi ilə digərlərinin üzərindən düşən bir əməldir.
[2] Əl-Ənbiya, 7

iki qismə bölmüş və hərəsinə özünə xas olan şeyləri vacib buyurmuşdur. Alim olmayanlara bilmədikləri şeyləri elm əhlindən soruşmalarını, alim olanlara isə soruşulduqları məsələlərə cavab verərək aydınlıq gətirmələrini əmr etmişdir. Deməli, vacibatlar şəxslərə görə fərqlilik ərz edir. Elə isə alim olan kəslər gücləri çatan qədər haqqı təbliğ etməli, alim olmayanlar isə özləri və yaxınları – yoldaşları, övladları və başqaları haqda onu maraqlandıran məsələlər haqda soruşub öyrənməlidir. Əgər hər iki tərəf (özünə aid olan işdə) bacardığını etsə, o zaman uğur əldə edərlər. Çünki İzzət və Cəlal sahibi Allah belə buyurmuşdur: *“Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər”*[1].

Təəsüflər olsun ki, biz tarixdə misli görünməmiş və hər tərəfdən müsəlmanlara üz verən fəlakətlərin mövcud olduğu bir dövrdə yaşayırıq. Bu da kafirlərin hamılıqla müsəlmanların üstünə hücum çəkməsidir. Necə ki bunu Peyğəmbərimiz ﷺ məşhur və səhih (etibarlı) hədisində bizə xəbər verərək belə demişdir: *“Ümmətlər sizin üzərinizə ac adamların yemək qabının üzərinə çökdükləri kimi çökəcəklər”.* Səhabələr: “Ey Allahın rəsulu, bu həmin gün bizim sayımızın azlığına görəmi olacaq?” – deyə soruşduqda Peyğəmbər ﷺ belə cavab verdi: *“Xeyr! Həmin gün siz çox olacaqsınız, lakin selin gətirdiyi çör-çöpə bənzəyəcəksiniz. Uca Allah düşmənlərinizin qəlblərindən sizə qarşı olan qorxunu götürəcək və sizin qəlblərinizə zəiflik salacaqdır”.* Səhabələr dedilər: “Ey Allahın rəsulu, zəifliyin səbəbi nə olacaqdır?” Peyğəmbər ﷺ dedi: *“Dünya sevgisi və ölüm qorxusu”*[2].

Deməli, hər bir alim təsfiyə və tərbiyə etmə prinsipi əsasında çalışmalı, öz yaşadığı ölkəsində gücü çatdığı qədər müsəlmanlara həqiqi tövhid etiqadını aşılamalı və doğru bir şəkildə onlara əqidə əsaslarını, ibadətləri və əxlaq normalarını öyrətməlidir. Çünki müsəlmanlar günümüzdə olduğu kimi, bundan sonra da pərən-pərən olacaqları, bir bayraq altında və vahid bir səfdə birləşməyəcəkləri təqdirdə heç vaxt yəhudilərə qarşı bir cəbhədə

---

[1] Əl-Bəqərə, 286

[2] Hədis səhihdir. Hədisi Əbu Davud (4297), Əhməd (5/287) Sövbandan rəvayət etmiş, Əlbani də “Silsilə əs-səhihə” (958) əsərində səhih olduğunu demişdir.

savaşa bilməyəcəklər. Belə halda isə onlar üzərlərinə tökülüşən düşmənlərə qarşı cihad bayrağını qaldıra bilməzlər. Lakin buna qarşı onlar şəriətin izn verdiyi və əlləri çatan bütün vasitələrdən istifadə etməlidirlər. Çünki bizim (bu kimi işləri həyata keçirə bilməyimiz üçün) maddi imkanlarımız yoxdur. Lakin olsaydı belə, yenə də əməli olaraq bir iş görmək iqtidarımız yoxdur. Çünki, çox təəssüflər olsun ki, hal-hazırda əksər müsəlman ölkələrinin hökrmətləri, rəhbər və idarəçiləri şəriətə müxalif siyasət yürüdürlər. Lakin biz Uca Allahın izni ilə az öncə qeyd etdiyim iki böyük vəzifəni: saflaşdırma və tərbiyə etmə prinsiplərini həyata keçirə bilərik. İslam təbliğatçıları şəriətə müxalif siyasət yürüdən ölkələrdə bu önəmli vəzifəni həyata keçirəcəkləri və bu təməl üzərində bir araya gələcəkləri gün, inanıram ki, İzzət və Cəlal sahibi Allahın *"O gün möminlər sevinəcəklər. Allahın köməyi ilə"*[1] ayəsi öz təsdiqini tapacaqdır.

۞ ***Hər bir müsəlman, həyatının bütün sahələrində Uca Allahın hökmlərini gücü çatan qədər tətbiq etməlidir.***

Deməli, hər müsəlman ona vacib olanı gücü çatan qədər yerinə yetirməlidir. Allah hər kəsi yalnız gücü çatan qədər mükəlləf edər. Həqiqi tövhidi gerçəkləşdirmək və düzgün ibadəti həyata keçirməkdən ötrü Allahın hökmü ilə hökm verməyən ölkələrdə şəriət dövlətinin qurulması şərt deyildir. Çünki onsuz da belə yerlərdə Allahın nazil etdiyi qanunlar içərisindən ilk növbədə tövhid etiqadını bərqərar etmək lazımdır. Təbii ki, bəzi dövrlərdə fövqəladə hadisələr baş vermişdir ki, bu kimi hallarda insanın cəmiyyətdən ayrılıb xəlvətə çəkilməsi daha məqsədəuyğundur. Belə hallarda müsəlman xəlvətə çəkilərək Rəbbinə ibadət edir və bu yolla o özünü insanların şərindən, onları da öz şərindən qorumuş olur. Bu barədə çoxsaylı hədislər varid olmuşdur. Buna baxmayaraq, İbn Ömərin ﵁ rəvayət etdiyi *"İnsanlarla ünsiyyətdə olub onların əziyyətlərinə səbir edən mömin insanlardan uzaq durub onlardan heç bir əziyyət görməyən mömindən daha*

[1] Ər-Rum, 4-5

*xeyirlidir"*[1] hədisdə qeyd olunduğu kimi, cəmiyyətə qarışmaq əsas kimi götürülür. Şəkk yoxdur ki, islam dövləti Allahın qanunlarının yer üzündə icrası üçün bir vasitədir, lakin o, dinin əsas məqsədi deyildir.

Bəzi təbliğatçıların təəccüb doğuran əməllərindən biri də gücləri çatmayan işlərə yönəlmələri, onlara vacib və icrası asan olan işləri isə tərk etmələridir. Bir müsəlman dəvətçisinin[2] öz davamçılarına vəsiyyət etdiyi kimi, onlar bütün bunlara öz nəfsləri ilə mübarizə aparmaq yolu ilə nail ola bilərlər. O belə demişdir: "Qəlblərinizdə islam dövlətini qurun ki, torpaqlarınızda da islam dövləti qurulsun". Buna rəğmən, biz onun davamçılarının çoxunun bu vəsiyyətə müxalif olduqlarının şahidi oluruq. Belə ki, onlar təbliğatlarının əsas hissəsini İzzət və Cəlal sahibi Allahı hökm verməkdə təkləşdirmək mövzusunda ayırır və bunu "Hakimiyyət yalnız Allahındır!" – deyərək məşhur bir ibarə ilə ifadə edirlər. Şəkk yoxdur ki, hökm yalnız Allahındır, Onun bu və digər məsələlərdə heç bir şəriki də yoxdur. Lakin onlardan bəziləri dörd məzhəbdən birinə təqlid edər və daha sonra etdiyi əməlinə zidd olan səhih sünnədən açıq bir dəlillə qarşılaşdıqda: "Bu, məzhəbimə müxalifdir", – deyər. Bəs Uca Allahın sünnəyə tabelik yönündəki hökmü harada qaldı?! Həmçinin onlardan bir qismi Allaha sufi təriqətləri metodu ilə ibadət edirlər. Bəs Uca Allahın tövhid etiqadı yönündəki hökmü harada qaldı?! Onlar özləri riayət etmədikləri şeyləri başqalarından tələb edirlər. Axı sənin öz etiqadında, ibadətlərində, əxlaqında, öz evinin içində, övladlarının tərbiyəsində və alış-veriş işlərində Allahın nazil etdiyi qanunları tətbiq etməyin çox asandır. Bunun müqabilində isə əksər hökmlərində Allahın nazil etdiyi hökmlərlə hökm verməyən bir hakimi buna məcbur etməyin, yaxud onu vəzifəsindən azad etməyin son dərəcə çətin (bir çox hallarda isə qeyri-mümkün) bir

[1] Hədis səhihdir. Hədisi Tirmizi (2507), İbn Macə (4032), Əhməd (5/365) və Buxari "Ədəbul-mufrad" (388) əsərində Peyğəmbərin əshabından yaşlı bir səhabədən rəvayət etmişlər. Əlbani "Silsilə əs-səhihə" (939) əsərində hədisin səhih olduğunu demişdir.
[2] Həsən əl-Bənnanı nəzərdə tutur.

işdir. Elə isə, nə üçün asan olanı tərk edib çətin olana yönəlirsiniz?!

Bunun iki səbəbi ola bilər: Ya bu cür kəslərin pis tərbiyə almaları və səhv istiqamətə yönəldilmələri, ya da ki onların gücləri daxilində olan bir işi tərk edib gücləri çatmayan işlərə yönəlmələrinə səbəb olacaq bir etiqada sahib olmalarıdır.

Düşünürəm ki, hal-hazırkı dövrdə hər kəs öz gücü və imkanları daxilində təsfiyə (saflaşdırma, təmizləmə) və tərbiyə etmə prinsipinə yönəlməli, insanlara düzgün olan etiqadı və ibadəti təbliğ etməlidir. Şübhəsiz ki, Uca Allah heç kəsi gücü çatmayan şeylərə mükəlləf (məsul) etməz.

Həmd yalnız Aləmlərin Rəbbi olan Allaha məxsusdur!
Peyğəmbərimiz Muhəmmədə və onun ailəsinə
Allahın salamı, rəhməti və bərəkəti olsun!

## MÜNDƏRİCAT

Ön söz......................................................................................... 4
Müqəddimə.................................................................................... 7
İmam Əlbaniyə ünvanlanan sualın mətni.......................................9
İmam Əlbaninin cavabı..................................................................10
*Peyğəmbərlərin və elçilərin* ﷺ *etdiyi kimi, ilk növbədə tövhid inancına diqqət ayırmaq və ehtimam göstərmək lazımdır*............................ 10
*Bu gün müsəlmanların əksəriyyəti "lə iləhə illallah"ın mənasını tam anlamı ilə qavramır*..................................................................13
*Etiqadi mövzulara diqqət ayırmağın vacibliyi şəriətin ibadət, muamələ, əxlaq və mənəviyyat kimi digər sahələrinə biganə qalmaq anlamını vermir*...................................................................................18
*Düzgün etiqadın və onun tərkib hissələrinin insanların çoxuna tam aydın olmaması*.............................................................................. 20
*Sağlam əqidəni təbliğ etmək ciddiyyət, davamiyyət və böyük səy tələb edir*........................................................................................ 24
*İslah yolu məhz təsfiyə və tərbiyə etmə prinsipinə əsaslanmaqla mümkündür*........................................................................................ 26
*Siyasi fəaliyyətlə kim və nə zaman məşğul olmalıdır?*....................28
*Sualda qeyd olunan bu acınacaqlı halın dəyişməsi üçün müsəlmanın necə tövfə verməsi və vəzifə borcunu necə ödəməsi ilə əlaqəli imam Əlbaninin cavabı:*.................................................... 29
*Hər bir müsəlman, həyatının bütün sahələrində Uca Allahın hökmlərini gücü çatan qədər tətbiq etməlidir*.................................31